

***"Azərbaycan" qəzetinin 306-cı nömrəsinin 1-ci səhifəsi***





**Bazar ertəsi, 27 oktyabr 1919-cu il, nömrə 306**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 2 səfərül-müzəffər sənə 1338. 27 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliiskəndər Aşurov, öz oğlanları Səftər və Səttar kamalı-yəs və təəssürlə [böyük bir matəm və kədərlə] öz qövm və əqrəbalarına və dost-aşnalarına əziz və sevgili, birincinin damadı [kürəkəni] və ikincilərin yeznələri olan **Ələsgər Hacıbaba oğlu Aşurovun** mərhum olduğunu xəbər verirlər. Təşyiyi-cənazə [cənazənin yola salınması] oktyabrın 27-də səhər saat 10-da özünün Karantinnı küçədə 13 nömrəli evindən Qasım bəy məscidinə aparılacaq.

*11483*

## ELAN

1919 sənə oktyabrın 27-də bazar ertəsi gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## SİRK "MODERN"

Düşənbə günü oktyabrın 27-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mü-barizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Kalişeviç – Qara Maska.

2-nci: Raqenbaum – Makarov.

3-ncü: Oleynikov – Buyvolov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Məşhur italyan müdiriyyətinin benefisi hazırlanır (Havada uçan adamlar).

*11480*

* * *

Ümuri-Xeyriyyə Nəzarəti bununla elan edir ki, 20 min pud buğda və un almaq istəyir. Satmaq istəyən şəxslər lazımdır ki, nümunələri və qiymətləri noyabr ayının 1-nə kimi Ümuri-Xeyriyyə Nəzarətinə (Sadovaya küçədə nömrə 3) bağlı paketlərdə təqdim etsinlər.

Məzkur [deyilən] taxıl Nəzarətə Yevlax və yainki Bakı istasyonlarında təhvil verilməlidir.

*T-297*

**DÖVLƏT TEATROSU**
**Azərbaycan Dövləti Teatro heyəti**
Səşənbə günü
oktyabrın 28-ndə axşam
Dövlət Teatrosunda
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Gaveyi-ahəngər"**
Şəmsəddin Sami bəyin əsəri
5 pərdədə
Tamaşa başlanacaq axşam
saat 8 tamamda.
Biletler teatrın kassasında
satılmaqdadır.
Rejissor Sidqi Ruhulla.
Müavini-rejissor: Hacıbaba Şərifov.
Dövləti Teatro heyəti müdiri:
Qulamrza Şərifov.
Gələcək tamaşa
oktyabrın 31-ndə "Əbülüla".
Mövqeyi-tamaşaya
qoyulmaq üçün hazırlanır:
"Yezid ibn Müaviyə" və
"Trablis müharibəsi".
Dövləti Teatro heyəti vəkili:
M[əhəmməd] Ə[li] Sidqi.
Qeyd: Möhtərəm tamaşaçılara elan
edilir ki, bundan sonra pərdələr təyin
edilən zaman qaldırılacaqdır.

*T-304*

**GÜC BİRLİKDƏDİR!**

Xalq maliyyəsi lazımlı yerdə saxlanılarsa, xalq təsərrüfatı da intişar tapacaqdır [inkişaf edəcəkdir].

Azərbaycan Etibar, İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqı idarəsi Bakı şəhərində (Karantinni küçədə, 84 nömrəli evdə) 15 təşrini-əvvəl [oktyabr] 1919 sənəsi tarixindən fəaliyyətə başlamışdır. Qanunnamənin 27, 28 və 29-cu maddələrinə məbni [əsasən], İttifaqın sərmayəsi idxal olmaq haqqından (500 rublə), pay sərmayəsi və mənfəətdən saldırılmış məbləğdən hasil olur. Hər pay haqqı 2000 rublə təyin edilmişdir. Hamı etibar, istiqraz və əmanət cəmiyyətləri və Müəssislər İctimasının [Təsisçilər Yığıncağının] qət'i [qərarı] ilə özgə kooperativlər də ittifaqa üzv yazıla bilərlər.

Cari hesaba vaxtla xüsusi əşxasdan [şəxslərdən] və müəssisələrdən məbləğlər qəbul edilir. Verilmiş məbləğlər qeyri-məhdud surətdə və hər bir vaxtda nağd olaraq qaytarılır.

İttifaqın kontoru açıqdır səhərlər 10-dan 12-yə kimi, axşamlar 5-dən 7-yə kimi.

*İttifaqın İdarəsi*
*T-298*

**MƏNFİ BİR İTTİHAD**

Məclisi-Məbusanın son iki iclası Qanuni-mətbuatın [mətbuat qanununun] müzakirəsi ilə keçdi. Sosialistlər bütün şiddət və hiddətləri ilə qanunun əleyhinə silahlanmış, layihənin rəddini təklif eyləmişlərdi.

[Səməd ağa] Ağamalıoğlunun ta papalar zamanına qədər gedərək ingizisyonlardan [inkvizisiyalardan], Borciyalardan, bilməm nələrdən başlayaraq qanlı sultan Əbdülhəmidə qədər təkrarlaması, [Əliheydər] Qarayevin "Şərqi Qərb hürriyyətindən məhrum edirlər" deyə yayqaralar çıxarmasını [çığır-bağır salmasını], [İbrahim] Əbilov ilə Əhməd Pepinovun saatlarca qanun əleyhində söylənib durmalarını görən tamaşaçılar yəqin bu əfəndilərin qanuni-mətbuat vasitəsilə məmləkətimizdə yenidən təsis edilmək istənilən sansura [senzuraya], mətbuat hürriyyətini işkal edən [əngəlləyən] çəkilməz qeydlərə [bağlara, zəncirlərə] qarşı üsyan etdiklərini güman eyləmişlərdir.

Fəqət nərədə?

Bunların mətbuat qanununa etdikləri hücum məşhur Servantes herosu [qəhrəmanı] Don Kişotun yel dəyirmanlarına yapdığı hücumun eyni idi.

Qəzetə mühərriri (redaktoru) yazısız, hüququndan münsəlib [hüquqları əlindən alınmış] bir məhkum və həddi-büluğa ərməmiş [çatmamış] çocuq da ola bilər!

İştə, bir şüar ki, sosialistlərin əlində bir silah olaraq, Daxiliyyə Nəzarəti tərəfindən verilən layihəni xırpalamaq istəyirdi.

Layiheyi-qanuniyyəcə, qəzetə yazandan tələb olunur ki, savadlı olsun, həddi-büluğa ərmiş olsun və özü də məhkum olmasın. Böylə bir tələb kafidir ki, qanun sosialistlərin lütfsüzlüyünü cəlb eyləsin, o qanunu yazan, müstəbid Əbdülhəmid ilə yanaşa zikr edilsin.

"Mətbuat üçün heç bir qanun qoyula bilməz" – Qarayev və yoldaşlarının təklifi bundan ibarət idi.

Sosialistlərin bugünkü tənqidlərində "müxalifət üçün müxalifət" düsturu apaşkar hakim idi.

Onlar qanuna öylə bir nöqteyi-nəzərdən müxalifət edirlərdi ki, heç bir vəchlə kəndilərinə haqq vermək mümkün deyildi.

Müzakirələr bitdi, rəy almaq lazım idi. Sosialistlərlə bərabər daşnaklar, ittihadçılar və əhrarlar da mühərririn bisavad, çocuq, məhkum olmasında bir zərər olmadığını bildirdilər. Hətta sabiq bitərəflərdən heç bir Parlaman kümәsinə yanaşmayıb da yalnız qalan əzadan [üzvlərdən] bir qismi belə bu cərəyanla bərabər əl qalxızmışlardı.

"Müsavat" əleyhinə digər firqələr arasında mənfi olmaq üzrə bir ittifaq mövcud olduğunu söyləyib dururlardı. Bu günə qədər bu xüsus sezilirdi. Fəqət bu gün bütün açıqlığı ilə meydana çıxdı. İki müqabil intəha [iki zidd uc] – sağ ilə sol, mərkəzin başı üzərindən yek-digərinə [bir-birinə] əl verib nəyi müdafiə edirlərdi? Cəhl ilə cinayəti!

Savadsız mühərrir!.. İştə, siyasi bir futurizm ki, Qara bəy [Qarabəyli] ilə Qarayevi birləşdirmişdi.

Hər kəsin xatirində olsa gərəkdir ki, ittihadçılar elə daima müsavatçıları bununla ittiham edirlərdi ki, onlar "İttihad"ı kənarda buraxıb da daşnaklarla ittifaq edir, hökumət qururlar. Fəqət bu gün yaratmaq üçün deyil, yıxmaq və dağıtmaq qəsdi ilə həman ittihadçılar daşnaklarla bərabər əl qaldırmağa, onlarla birlikdə səs verməyə ərinmədilər.

Sağ ilə solun Avropa parlamanlarında da bəzən mərkəz əleyhinə olmaq üzrə birləşdikləri, birgə səs verdikləri vaqe olur. Burada əcaib bir şey yoxdur. Fəqət bu, əksərən taktik məsələlərinə aid olur. Halbuki Qanuni-mətbuat əleyhinə irad olunan nüktələr o dərəcədə bəsit, o dərəcədə vahi [boş], o dərəcədə aşkar şeylərdi ki, onun üzərinə ittihad etmək məhza müxalifət yapmaq üçün müxalifət etmək olur ki, bu gedişlə məmləkət qətiyyən tikilməz, böylə bir ittihaddan müsbət deyil, daima mənfi nəticələr alınar. Böylə mənfi əsaslar üzərinə birləşən fir-

qələr qətiyyən bilsinlər ki, heç bir zaman müsbət bir iş yapammaz, hökumət qurammazlar.

Son iclasda mübaşirin yanlış hesabı üzərinə bir dəqiqəlik elani-zəfər edən sosialistlər, əcəba, nə düşünürlər? Bu kimi mənfiyyat ilə birləşən firqələr hökumət sükanını idarə edə bilərlərmi?

Ehtimal ki, heç bir əsasla hesablaşmayan adamlar çıxar da buna qarşı "əvət" deyərlər. Fəqət xalq pək əla anlayır ki, böylə bir ittihadın yapacağı hökumət bisavad bir mühərririn yazacağı qəzetədən fərqli olammaz!..

*N.*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Pudoj dairəsi - Pudojun 50 fərsəx şimal-şərqində olan Beloye Ozero gölü tərəfimizdən işğal edilmişdir.

Fin səvahili [sahilləri] dairəsi - Kəşfiyyat əməliyyatı.

Qatçina cəbhəsi - Qırmızı hissələr müvəffəqiyyətli yürüşlərində davam edərək Pavlovsk və Detskoye Selonu işğal etdi. Bir çox əsir, mitralyoz, top və qənaimihərbiyyə [hərbi qənimətlər] alınmışdır. Yürüş davam edir.

Luj[ski] dairəsi - Luqadan 20 fərsəx cənub-şərq tərəfə olan bir neçə kəndlər yürüş edən hissələrimiz tərəfindən alınmışdır. Varşava dəmiryolunda yenidən Vladimir mövqifi [stansiyası] əlimizə keçmişdir.

Polotski dairəsi - 60 fərsəx tulunda [uzunluğunda] olan cəbhədə Uşa çayı üstündə bizdən ötrü müvəffəqiyyətli vuruşmalar davam edir.

Kiyev dairəsi - İrpen mövqifi yaxınlığında düşmənin zirehli qatarının müvəffəqiyyətsiz hərəkatı vaqe olmaqdadır.

Sevsk dairəsi - Sevskdən şimal-şərqə vuruşmalar davam edir.

Dmitrov dairəsi - Dmitrovskun şimal-qərbində bizim hissələrimiz müvəffəqiyyətli surətdə irəliləməkdədir.

Yels dairəsi - Yelsin qərb və şərq tərəflərində müvəffəqiyyətli vuruşmalar davam edir.

Voronej dairəsi - Qırmızı atlı nəfəratımız Ramon mövqifi yaxınlığında Voronej çayı keçidini tutmuşdur. Düşməni Voronejə qədər atmışdır. Bir çox əsir, 4 top, 10 mitralyoz və qənaim alınmışdır.

Bobrov dairəsi - Təbəddülatsızdır [dəyişiklik yoxdur].

Orenburq dairəsi - Bizim yürüş edən hissələrimiz Otub nəhrinə çatmışlardır.

Tobolsk dairəsi - Qırmızı qoşunlarımız yenidən Tobolsk şəhərini işğal etdi.

Qeyri cəbhələrdən məlumat daxil olmamışdır.

**Müdaxilə əleyhinə**

Nauen - Sen nəhri ətrafında olan Həmkarlar İttifaqı Şurası Fransanın hər növlə olur-olsun bolşevik Rusiya ilə hərbi hərəkatda bulunmaq əleyhinə şiddətli bir lisan qullanmaqdadır. Fransa dövləti naminə göndərilən bir teleqrafda Fransa Rusiya əleyhinə hərbi hərəkatda iştirak edəcək olarsa, bütün əhalinin inqilabcuyanə çıxışı ilə təhdid edir.

**Yəhudilərin müraciəti**

Qomel - Kiyevdə nəşr olunan "Kiyev həyatı" qəzetəsinin verdiyi məlumata görə, yəhudi mürəxxəsləri [nümayəndələri] mitropolit Anatolini ziyarət edərək yəhudi talanı əleyhinə rus əhalisinə müraciətdə bulunmasını xahiş etmişdir. Mitropolit mürəxxəslərə, yəhudilərin əvvəlcə öz həmdinlərinin şura idarələrindən dəvət edilmələri lazım olduğunu bəyan etmişdir.

Tambov - Bütün idarə heyətlərini özünün işçiləri ilə təqviyə edən [gücləndirən] Kedrov nümayəndələrinin siyahısı nəşr edilmişdir. Qəflətli təftişlər əsnasında bir çox silah, əlbisə, davacat, alati-cərrahiyyə, yara bağlayan əşya və ərzaq əmtəəsi tapılmışdır. Bir çox əksinqilabçı və sabiq polis xidmətində olan möhtəkirlər həbs edilmişdir. Dəmiryol ştatası boşadılmışdır. Kedrov komissiyası öz işində davam edir.

**Denikin əleyhinə üsyan**

Qomel - Ukraynadan gələnlərin rəvayətinə görə, kəndçilər Denikin əleyhinə üsyan etməkdədir. Tripol[ye] ətrafında kəndçilər bir neçə dəfə böyük iğtişaş qalxızmışlardır. Silah olmadığından, üsyan təşkilatçılarının hərəkatı yatırılmışdır.

**Voronejin işğalı**

Moskva - Bu gün Qırmızı qoşun tərəfindən Voronej şəhəri işğal edilmişdir.

*(Gürcü teleqraf acentəliyindən)*

*(Lion radio xəbərləri)*

**Frakiyada**

Frakiya fransız və yunan əsgərləri tərəfindən işğal edilmişdir.

**Petroqradın alınması təsdiq edilməyir**

Helsinqoforsdan [Helsinkidən] Yudeniç ordusunun müvəffəqiyyətli hərəkatının davamını xəbər verirlər. Bununla bərabər, Petroqradın alınması xəbəri təsdiq edilməyir.

*(Alman mətbuatı)*

**Qərb Rus hökuməti və Almaniya**

Bir para qəzetələrin Qərbi Rus hökumətinin Berlinə nümayəndə təyin etdiyinə dair verdikləri xəbərlərə baxmayaraq, Almaniya dövlətinin Qərbi Rus Dövləti cümhuriyyətinin istiqlaliyyətini etirafdan mən'inə [qəbulunun qadağan edilməsinə] dair xəbərlər alınmışdır.

**Vaşinqton Konfransı və Almaniya**

Müttəfiqlər Ali Şurasının Almaniya və Avstriya mürəxxəslərinin [nümayəndələrinin] Vaşinqtonda olan Əmələ Konfransına buraxılmaları üçün rəy verdikləri şayiəsi təsdiq edilir. Buna görə Almaniya dövləti bir nəfər fəhlə və bir nəfər sahibkarlardan nümayəndə göndərməyi qət etmişdir.

**Yunanıstanda tərxis**

Yunanıstanda hökumət qərarı ilə ümumi tərxis elan edilmişdir. Əvvəlinci növ-

bədə ehtiyat nəfəratı və sonra nizami hissələr tərxis ediləcəkdir.

**Rusiya ablukası haqqında**

Madrid qəzetələrindən "İmparsial"ın nümayəndəsi ilə etdiyi müsahibəsində Ebert, Rusiyanın ablukasından [blokadasından] nəhayət dərəcə narazı olduğunu bildirmişdir. Almaniyanın daxili vəziyyəti haqqında nikbinlik təqviyə edilməkdədir [güclənməkdədir]. Mürtəcelərin hər bir iqdamatı [təşəbbüsü] nəticəsiz qalmaqdadır.

**Baltik səvahilində**

Alman mühafizəkar mətbuatı xəbər verir ki, litvalılar Baltik səvahilindən [sahillərindən] alman qoşunlarının vətənlərinə buraxılmayacaqları ilə təhdid edirlər. General Eberhardt litvalılarla bu xüsusda müzakirədə davam etməkdədir.

## QƏZETƏLƏRDƏN

**Qara dəniz donanması**

"K. V." qəzetəsi xəbər verir ki, Nikolayevdən verilən məlumata görə, orada dənizə mütəəddid [çoxsaylı] gəmilər buraxılmışdır. Buraxılan gəmilər içində şayani-diqqət [diqqətəlayiq] olan sualtı qayıqlarıdır ki, texnikanın axırıncı sədası ilə inşa edilmişdir. Qayıqlar tayfalarını [matroslarını] topladıqdan sonra Sevastopola gələcəklərdir. Bu yaxın zamanlarda "A[d]miral Naximov" və "A[d]miral Lazarev" və həmçinin "İmperator Birinci Nikolay" drednoutu dənizə çıxacaqlardır. Bunlardan başqa, texnikanın son sədası ilə inşa edilmiş mütəəddid gəmilər də vardır ki, seyri-səfainə [səfərə] hazırlanmışlardır.

**Fransada**

"K[iyevskaya] j[izn]" qəzetəsində Reymsdən Kiyevə yazılan xüsusi bir məktubun bəzi parçaları iqtibasən dərc edilmişdir ki, calibi-maraq olduğu üçün biz dəxi qəzetəmizə iqtibas ediriz:

*Reyms, 11 ağustos 1919 sənə.*

*"Parisdən avtomobil ilə Reymsə səyahətim qəlbimə silinəmməyəcək bir təsirat buraxdı. Fransanın bu vilayətini görməyərək təsəvvür etmək qeyri-qabildir. Şimdi mən anlayıram ki, böylə bir dəhşətli və fəlakətli günlər keçirmiş bir xalq başqasına müavinət edəmməz. Məni şəhərlərin və köylərin təxrib və bərhəva [məhv] edilməsindən ziyadə heyrətə daldıran, həman yerlərin mövti [ölü] siması oldu. Çöllərdə şimdi də işə başlanmamışdır. Hər tərəfi dəmir və qan ilə dolu olan o yerlərdə işləmək də mümkün deyildir və əlavə, adam da görünməyir. Ancaq bəzi köylərdə dəmir və qanla sərtasər [başdan-başa] döşənilmiş torpaqları təmizləməyə başlamışlardır və oralarda çalışanlar da fransızlar deyil, alman əsirləri və çinlilərdir. Həman o çinlilərdir ki, şimdi Şura hökumətində başqa bir istiqamətdə çalışırlar. Onları gördükdə, insanın tükləri ürpərirdi. Əvət, Fransa bir çox və çox sənələr içində düzəlməyəcək bir tərz ilə təxrib edilmişdir. Və sinəsi üzərinə təbiətin belə müqavimət edəmməyəcəyi möhlik [öldürücü] dəmir və çəlikləri qəbul etmişdir."*

**Don və Kuban ablukasına dair**

Rostov qəzetələrində Cənubi Rusiya





qüvayi-müsəlləhəsi [silahlı qüvvələri] Baş komandanı general-leytenant Lukomskinin imzası ilə atidəki [aşağıdakı] rəsmi məlumat dərc edilmişdir:

*"Kuban, Don və Terek üzərinə Baş komandanlıq tərəfindən abluka [blokada] elan edilmişdir deyə dövran edən şayiələrə görə, Komandanlıq kəndi tərəfindən elam edir [bildirir] ki, şu şayiələr işin nə üzlü olduğunu yanlış anlamadan ortaya çıxmış və Türüq və Məabir [Nəqliyyat və Rabitə] İdarəsinin Kuban, Don və Terekə göndərilən əşyanın ancaq Ticarət və Sənaət [Sənaye] İdarəsi icazəsi ilə göndərilməsi binagüzarlığını vəz edən [sərəncamını verən] təlimnamədən əyri olaraq iqtibas edilmişdir."*

**"Denikin Ukraynası" əhvalı**

Bu günlər Bakıya on iki günlük yoldan sonra Kiyev məkatibi-aliyyəsində [ali məktəblərində] təhsildə bulunan bir qrup azərbaycanlı tələbələr vürud etmişdir [gəlmişdir]. Məzkurlar [deyilən şəxslər] dabravollar tərəfindən işğal edilmiş Ukraynanın vəziyyəti-hazirəsi haqqında, bolşeviklər zamanı və dabravollar işğalından sonra Kiyev həyatı barəsində aşağıdakı məlumatı verirlər:

Kiyev bolşeviklər tərəfindən işğal olunandan sonra orada olan iki yüzə qədər azərbaycanlılar vətənləri ilə əlaqələri olmadığından "Kiyevdə Azərbaycan Cümhuriyyəti Koloniyası" namı [adı] ilə bir ittifaq təşkil etmişlərdi.

Bolşeviklər zamanı Azərbaycanın Ukraynada siyasi nümayəndəsi olmadığına görə, azərbaycanlıların əksəri İran təbəəliyini qəbula məcbur olmuşlardı. Əgərçi bolşeviklər ancaq İran və Çin konsulosunu tanıyırlardı, məmafih [bununla belə], onlar azərbaycanlılara qarşı heç bir təzyiqat da yapmayırlardı. Binaənileyh [ona görə], hər şeyin fövqəladə yüksək fiyatlara satılmasına baxmayaraq, azərbaycanlılar bolşevik dövrünü salamat keçirib "Çrezvıçayka" vəhşətlərindən yaxalarını xilas edə bilmişlərdir.

"Çrezvıçayka" dəhşətləri xüsusunda dabravol və Qafqaziya qəzetələrində verilən xəbərlərin həpsi doğru və həqiqətdir. Xüsusən bolşevik hökumətinin son günlərində şəhərdə dəhşət daha ziyadə artmışdı.

Bolşeviklər şəhəri tərk edərkən dəxi 127 adam edam etmişlərdi.

Ağustosun 17-də (əski stil) bolşeviklər şəhəri buraxıb çıxmış, petlyuraçılar və dabravollar işğal etmişlərdi. Petlyuraçılar Ukrayna bayrağı qaldırmışdılarsa da, öylədən [günortadan] sonra dabravollar onları şəhəri tərk etməyə məcbur etdilər və Kiyev bütün-bütünə dabravollar əlinə keçdi.

Dabravolların da azərbaycanlılarla əlaqəsi eyi [yaxşı] idi. Kiyev mühafizeyi-əsgəri naçalniki [hərbi mühafizə rəisi] general-leytenant Bredov və sabiq Tiflis qubernatoru general Çernyavski tərəfindən Azərbaycan Koloniyası rəisi qəbul olunmuş və rəsmi bir zat [şəxs] kimi tanınıb qarşılanmışdı. Böylə hüsn-təvəccöhə [hüsnrəğbətə] xidmət edən səbəb, dabravol Kiyev ordusu nisfinin [yarısının] müsəlmanlardan ibarət olması olsa gərəkdir.

Azərbaycanlıların vətənlərinə övdət etmələri [qayıtmaları] üçün Rostova qədər xüsusi bir vaqon da verilmişdi.

Bolşeviklər zamanı Azərbaycan haqqında Kiyevə yetişən xəbərlər pək mü-

ğalitəli [şübhəli, həqiqətə əsaslanmayan] idi. Öylə ki, Kiyevi dabravollar işğal etdilər, Azərbaycan barəsində bir çox şayiə və əxbarat [xəbərlər] zahir olmağa başladı.

"Azərbaycan" sözü gündə minlərcə dəfə istemal edildi [işləndi]. Bu xəbərlərin çoxu müfəttinanə [fitnəkarca] bir mahiyyət daşıyaraq, Azərbaycan xalqını ittiham üçün ortaya buraxılırdı. Xəbərlərin ümumi istiqaməti onu andırmaq istəyirdi ki, guya azərbaycanlılar ruslara qarşı ədavətkaranə hisslər bəsləyərək, dabravollarla müharibə etməyə can atırlar. Eyni təftinlər [fitnələr] gürcülər haqqında da buraxılırdı.

Azərbaycan Koloniyası Kiyevdən əzimət edən [yola düşən] zamanlarda fiyatın aşağı enməsinə görə məişət bir az eyiləşmişdi. Böylə ki, bolşeviklər zamanında qara ətməyin [çörəyin] girvənkəsi 180 rubləyə satıldığı halda, şimdi ağ ətmək 12 rubləyə, girvənkəsi 600 rubləyə satılan yağ 200 rubləyə satılmağa başladı. Şəkər heç bulunmadığı halda, bazarda göründü. Ət girvənkəsi 160 rubləyə güc-hal ilə çox az zaman bulunurdu, çoxaldı.

Para böhranı isə tədil ediləmməmişdi [yoluna qoyula bilməmişdi]. Zira Şura paraları ilğa [ləğv] edilərək ancaq Kerenski, Ukrayna, Petlyura və Dabravol (Don) paraları qəbul edilir ki, bir çox vaxt ixtilafları da mövcib [ixtilaflara səbəb] olur.

Fiyatların düşməsi əfkari-ümumiyyəni [ictimaiyyəti] dabravollar nəfinə [xeyrinə] çevirdi.

Bolşeviklərə heç bir tərəfdə hüsnrəğbət əsərləri görünməyir. Eyni zamanda dabravolların milliyyət əleyhinə yürütdükləri siyasəti əslən ukraynalı olan əhalinin hər təbəqəsi içində Petlyura[ya] tərəf meyl və hüsn-rəğbət oyandırmışdır. Ukraynalıların həpsi səbirsizliklə Petlyuranın vürudunu [gəlişini] bəkləyirlər.

Ukrayna qəzetələrinin qapadılması və "vahid, bölünməz Rusiya" bərpasını təbliğ edən [Vasili] Şulginin "Kiyevlyanin" nam rusçu mürtəce qəzetəsi və başqa o kimilərinin meydangir olması əhalini ziyadə qızdırır. Ukrayna istiqlalına böylə əlaqədə olan dabravollar yalnız Maxno, Zelyonı, [Dmitri] Sokolovski və başqaları kimi yeniyetmə müxtəlif atamanlar ilə müharibə deyil, Petlyura, yaxud "Ukrayna Xalq Cümhuriyyəti" qoşunları ilə də mübarizə etməyə məcbur olacaqlardır.

Və əlavə, Qomelə qədər yetişmiş lehlər [polyaklar] ilə dabravollar arasında münaqişə başlanmış və şu münaqişə dolayısı ilə əxirən [axır vaxtlar] Denikinə qarşı lehlər ilə Petlyura arasında ittifaq əqd edilmişdir [bağlanmışdır].

Romanlar bolşeviklərlə mübarizə etmək üçün kəndi müavinətlərini Denikinə təklif etmişlərdi. Nasıl ki məlumdur, Romaniyanın Bessarabiya üzərinə olan iddiasını Denikin tanımaq istəmədiyi üçün onların müavinətindən və onlarla hər dürlü etilafdan [razılaşmadan] imtina etdi. Nəticə olaraq, Romaniya da Denikinə qarşı Petlyura ilə etilaf əqd etdi.

Yəhudi talanı bolşeviklər zamanı olur idisə də, o da intizamı pozulmuş əsgəri hissələr tərəfindən pək nadir olaraq irtikab edilirdi [işlənirdi]. Dabravollar zamanı isə talan təbii bir mahiyyət almış, yalnızca bir Fastovda bir dəfə talan tam altı gün bilafasilə imtidad etmiş [fasiləsiz davam etmiş] və nəticədə 18 min yəhudi tələf olmuşdur.





Ukrayna daxilində qubernatorluq, polis idarələri və başqa inqilabdan irəliki qaydalar bərpa edilmişdir. Həmçinin yeni stil inqilab əlaməti sanıldığı üçün, əvəzinə əski stil qəbul edilmişdir. Dəmiryolları isə bu vaxta qədər bərbad bir haldadır. Bütün ali məktəblər şimdiyə qədər açılmamışdır. Ancaq Tibbiyyə şöbəsinin 4-cü və 5-ci kursları açıqdır. Hal-hazırda darülfünun [universitet] həyatını tənzim etməyə iqdamatda bulunurlar [təşəbbüs göstərirlər].

Bolşeviklər kəndi məğlubiyyətlərinə baxmayaraq, hər tərəfdən və hər yerdə ki mümkündür, Dabravol ordusu arxasında və ordu içində təbliğatlar yapırlar. Azərbaycanlılar övdət etdikləri sıralarda Odessa şəhəri, həmçinin Tiraspol-Skvira xəttindən şərqdə olan yerlərin həpsi dabravollar əllərində idisə də, ayrı-ayrı bolşevik hissələrinin və atamanların hərəkatı dəxi xitampəzir olmamışdı [sona çatmamışdı]. Şimdi məlum olur ki, heç kəsin bəkləmədiyi Kiyevin bolşeviklər tərəfindən axırıncı dəfə işğalı həman bu hissələrin cəbhə yararaq şimalda "kəndilərinə" iltihaq etmək [birləşdirmək] istədiklərindən nəşət etmişdir [irəli gəlmişdir] və onlara Petlyura dəxi müavinətdə bulunmuşdur.

## TÜRKİYƏDƏ

### Mustafa Kamal paşanın yeni Kabinəyə teleqramı

Anadolu və Rumeli Qüvayi-Milliyyə [Milli Qüvvələri] rəisi Mustafa Kamal paşa tərəfindən yeni Türkiyə Kabinəsinə zeyldəki [aşağıdakı] məzmunda bir teleqraf göndərilmişdir:

*"Millət şimdiyə qədər rəsi-karına keçənlərin Qanuni-Əsasiyə və amali-milliyyəyə münafi hərəkati-məlumasından mütəassirən, hüquqi-məşruəsini tanıtmaq və müqəddəratını əmin və əhil əllərdə görmək qərari-qətisini vermiş və lazım gələn təşəbbüsati-əzmkaranəyə təvəssül eyləmişdir. [Millət indiyə qədər iş başına keçənlərin Konstitusiyaya və milli amala zidd olan məlum hərəkətlərindən mütəassir olaraq, qanuni hüquqlarını tanıtdırmaq və müqəddəratını əmin və bacarıqlı əllərdə görmək barədə qəti qərarını vermiş və lazım gələn təşəbbüslərə əzmlə müraciət etmişdir.]*

*Təşkilati-müntəzəməyə tabe Qüvayi-Milliyyə iradeyi-qətiyyeyi-milləti beinayətullahil-kərim tamamən izhar və isbat etmək qüdrətini ihraz eyləmişdir. [Nizam-intizamlı bir təşkilata sahib olan Milli Qüvvələr, millətin qəti iradəsini Uca Allahın mərhəməti sayəsində tamamən meydana qoymaq və isbat etmək qüdrətini qazanmışdır.]*

*Millət qüvvət və iradəsini heç bir vaxt amali-müqəddəseyi-şahanəyə müğayir və mənafeyi-mülkü millətə mübayin bir tərzdə sərf etmək niyyəti-qeyri-məquləsində deyildir. [Millət öz qüvvət və iradəsini heç vaxt, padşahın müqəddəs amalına zidd olan və ölkənin və millətin mənafeyinə uyğun gəlməyən bir tərzdə sərf etmək kimi ağılsız bir niyyətə düşməmişdir.]*

*Millət zati-əqdəsi-xilafətpənahinin məzhəri-əmnü etimadı olan zati-fəxamətpənahiləri ilə rüfəqayi-kiramınızı müşkül vəziyyətdə buraxmaqdan qətiyyən mütəvəqqi olub, biləks, tamamən müzahir olmağa bütün səmimiyyətiylə hazırdır. [Millət xilafətin pənahı olan müqəddəs şəxsiyyətin, yəni sultanın inamını və etimadını qazanan siz Baş naziri və əziz yoldaşlarınızı çətin vəziyyətdə qoymaqdan qəti surətdə çəki-*

*nərək, əksinə, tamamilə dəstək olmağa bütün səmimiyyətilə hazırdır.]*

*Şu qədər var ki, hökuməti-hazirə ərkanı içində hökuməti-sabiqədən bəzi zəvat da bulunduğundan, bu babda bərvəchi-ati bəzi şərait dərmiyanına lüzum görülmüşdür. [Ancaq indiki hökumət adamları içində əvvəlki hökumətdən bəzi şəxslər də olduğuna görə, bu barədə aşağıda göstərilən müəyyən şərtləri önə sürmək ehtiyacı meydana çıxmışdır.]*

*Heyətimiz qəti və sərih olaraq zati-saniyi-sədarətpənahilərindən xüsusati-atiyyənin hökuməti-cədidəcə təsvib və qəbul edilib-edilməyəcəyini kamali-hörmətlə anlamağı vəcibədən ədd edir: [Heyətimiz qəti və açıq olaraq, Baş nazirdən, aşağıdakı məsələlərin yeni hökumət tərəfindən təsdiq və qəbul edilib-edilməyəcəyini hörmətlə soruşub öyrənməyi vacib sayır:]*

*1) Hökuməti-cədidənin Ərzurum və Sivas konqrelərində təyin və təsbit edilən təşkilat və məqasidi-məşrueyi-millətə riayətkar qalması; [Yeni hökumətin, Ərzurum və Sivas konqreslərində təyin və qəbul edilən təşkilata və millətin qanuni məqsədlərinə riayət etməsi;]*

*2) Məclisi-Millinin iniqadı ilə müraqibeyi-feiliyyə başlayıncaya qədər müqəddərati-millət haqqında bir gunə təəhhüdi-qəti və rəsmiyə girilməməsi; [Milli Məclisin toplanmasıyla feili nəzarətə başlayıncaya qədər, millətin müqəddəratı barədə heç bir surətdə qəti və rəsmi bir öhdəlik götürülməməsi;]*

*3) Sülh Konfransında təyini-müqəddərati-millət və məmləkətə məmur olacaq mürəxxəslərin sabiqi kimi naəhillərdən təyin edilməyib, millətin bəhəqq amalını müdrik və etimadına məzhər əhli-vüquf və iqtidardan intixab buyurulması. [Sülh Konfransında millətin və ölkənin müqəddəratını təyin etmək vəzifəsini daşıyacaq nümayəndələrin əvvəlki kimi bacarıqsız şəxslərdən təyin edilməyib, millətin amalını layiqincə dərk edən və etimadına nail olan, məlumatlı və bacarıqlı şəxslərdən seçilməsi.]*

*Bu əsasatda tamamən etilaf hasil olduğu təqdirdə, bilcümlə Düvəli-etilafiyyəcə məşruiyyəti və qüdrəti tanınmış olan təşkilati-milliyyəmizin hökumətin müzahiri olacağı və bu surətlə hökumətin təmini-müqəddəratda müəssir bulunacağı təbiidir. [Bu prinsiplərdə tamamilə uzlaşma meydana gələrsə, qanuniliyi və gücü bütün Antanta ölkələri tərəfindən də tanınmış olan milli təşkilatımızın hökumətə dəstək olması və millətin müqəddəratının təminində hökumətin öz rolunu oynaması təbiidir.]*

*Bir dəfə bu nüqati-əsasiyyədə mütabiqət hasil olduğu anlaşıldıqdan sonra, hadisati-əxirə vəsiləsi ilə hasil olan əhvali-qeyri-təbiiyyənin izaləsi məqsədilə bəzi məruzati-taliyyədə bulunmaqlığımıza müsaideyi-sədarətpənahiləri istirham olunacaqdır. [Bir dəfə bu prinsipial nöqtələrdə razılıq əldə edildiyi anlaşıldıqdan sonra, son hadisələr səbəbindən meydana gələn qeyri-təbii halların aradan qaldırılması məqsədilə, ikinci dərəcəli məsələlər üçün Baş nazirin icazəsini xahiş edəcəyik.]*

*Anadolu və Rumeli*
*Müdafieyi-Hüquq Cəmiyyəti*
*heyəti-təmsiliyyəsi naminə:*
*Mustafa Kamal"*

## DAĞISTANDA

**Petrovskda**

Denikin tərəfdarı olan "Qolos Rosii" qəzetəsi Petrovsk [Mahaçqala] haqqında böylə məlumat verir:

Bu günlərdə Petrovskdan gəlmiş olan və qəzetənin rəyincə mötəbər bir zat [şəxs] xəbər verir ki, indilikdə Petrovsk, Teymurxanşura [Buynaksk], Dərbənd və mahalında olan kəndlər Könüllü ordu tərəfindən işğal edilmişdir. Kiçik əndazədə dağlarda iğtişaş olmaqdadır.

Üç gün bundan əqdəm [qabaq] gecə Qudermes ilə Xasavyurd arasındakı dəmiryol bir-iki fərsəx uzunluğunda çeçenlər tərəfindən təxrib edilmişdi. Yolun təmirinə zirehli qatar mühafizəsi altında bilatəxir mübaşirət edilmişdir [dərhal başlanmışdır]. Bir neçə gündən sonra Petrovsk ilə Şimali Qafqaziya münasibatına [rabitəsinə] başlanacaqdır.

Dağıstan qoşunları rəisinin ixtiyarında kəşfiyyat əməliyyatı yapan bir çox təyyarələr və hidroplan vardır. Petrovsk ilə Dərbənddə 5 minə qərib [yaxın] qoşun toplanmışdır.

Bu vaxta qədər üsyan ancaq Dağıstan mahalının üç dairəsində olmuş imiş. Dağıstanın qalan hissələri bitərəf qalmış imiş. Hətta bir neçə mahallar könüllülərə üsyançılarla mübarizədə müavinət belə edirmişlər.

Bundan bir həftə yarım irəli üsyançı dağıstanlılar [Teymurxan] şuraya yaxınlaşaraq onu bombardman etməyə başlarlar. Dağıstanlıların nizami hissələri ilə 200 kazaklara komanda edən dağıstanlı bir polkovnik bütün şuralıları səfərbərlik halına gətirərək şəhərə yürüş edənlərin bütün hücumunu dəf edər. Sonradan 10 eşelon könüllülər gəlib şəhərin ətrafını işğal edərlər. Ciddi müsadimələr [toqquşmalar] başlanar və üsyançılar külli tələfat verərək dağlara çəkilmişlərdir. Altı dağ toplarından ikisini buraxaraq dördünü özləri ilə aparmışlardır. Üsyançılar tərəfindən şəhər bombardman edildikdə iki məscid və bir neçə ev xəsarətdidə olmuş imiş.

Dağıstanın şəhərlərində indilikdə həyat adi qayda üzrə cari olmaqdadır [davam etməkdədir]. Vuruşmalar yoxdur, bütün üsyançılar dağlara çəkilmiş və Könüllü ordu tərəfindən təqib edilməkdədirlər. Petrovskda həyat dəxi həmişəki qərar üzrədir. Rusiyadan bir çox tacirlər gəlmiş və İran ilə münasibat və əlaqəyə girişmişlərdir. Petrovskda əhali həddən ziyadə artdığı üçün boş ev yoxdur. Şəhərə gələnlər mövqifdə [stansiyada] və körpülərdə qalmağa məcbur olurlar.

## "MƏMLƏKƏTİMİZİN HALI NASILDIR?"

Parlaman və mətbuatda sağ və sol tərəf müxaliflərinin başlarında və qələmlərində müzmin [xronik] bir mərəz vardır: həqiqəti müxalifətə fəda etmək, məntiq və ağlı bir tərəfə atmaq.

Bir məmləkətdə müxalifətin qiymət və səmimiyyəti o zaman təsdiq olunar ki, müəyyən və müştərək mənfəətlər eyicə bilindikdən sonra millətin həyati-siyasiyyə və amali-milliyyəsinə prinsip ədd [hesab] edilən məsələ və mövzularda ixtilaf edilsin.

Bu müxalifət məqbul [qəbul edilən] və mötəbərdir. Əgər böylə bir müxalifət olarsa, hali-təbiidə yaşayan bir camaata cə-

miyyətin, hökumətin və tabe olduğu siyasi cərəyanın fənalıqları, xətaları, nöqsanları haqqında bir qənaət, bir fikir vermək mümkün olar. Yoxsa gəlişigözəl söz söyləmək, tənqid olsun deyə hər ağlına gələni yazıb-cızmaq boş bir lafü gəzaf [boş söz] olub qalar.

Biz biliriz ki, sol tərəf müxaliflərinin şüarı inqilabçılıqdır. İnqilabçılığın məntiqi yel dəyirmanı kimi dörd bir tərəfə dönən və heç bir tərəfdə səbat etməyən rəngsiz, mizacsız, təbiətsiz bir şeydir.

Sol tərəf hökumət təşkili platformasında ittihad və iştirak edər, bir az sonra hökumətə sorğular verər, hökumətdən iftiraq eylər [ayrılar].

Sağ tərəf hökumət platformasının əsaslarına tərəfdar olar, sonra o əsasları öz əli ilə pozmağa çalışar. Sağ tərəfin əlaməti-fariqəsi [xarakteristik xüsusiyyəti] nə hökumətdir, nə də hökumətsizlikdir. Ancaq durğun suyu bulandırmaq.

Az-çox müxalif qəzetələri oxuyan və müxaliflərin tənqid və tərizlərini eşidənlər də heyrətlər içərisindədir:

- Nə olmuş, nə varmış?

"Zəhmət sədası" məmləkəti böyük bir bəla və fəlakət içərisində görür: Məmləkət batır. Hökumət yox. Rüşvət alanlar çox. Məhkəmələr pozuq. Burjuylar ciblərini doldurur. Füqərayi-kasibə soyulur.

Sağ tərəfdə "İttihad" isə daha böyük vəlvələ çıxarır: Bugünkü varlığımız, daxili və xarici siyasətimiz bərbaddır. Bizim dediklərimizə kimsə əhəmiyyət verməyir. Hər kəs öz cibinin faydasına baxır və sairə.

Təəccübdür, bir məmləkətdə parlamentarizm üsulu olduqdan və demokratik bir cümhuriyyətdə bulunduqdan sonra nə üçün hər fərd ağlına və məntiqinə görə dilini işlətməsin?

Hökumət göydən enmiş bir şeymidir ki, hər yazı yazanın, hər ağzı işləyənin boş tənqid və tərizlərinə [məzəmmətlərinə] məruz qalsın? Parlaman kürsüsündə Mətbuat qanunu müzakirə edilərkən cümhuriyyəti və qüvveyi-təşriiyyəsi [qanunverici hakimiyyəti] ilə yaşayan bir hökuməti Nikolay və Əbdülhəmid hökumətlərinə təşbeh etmək [oxşatmaq] müxalifətmidir, yoxsa mülavimətmi [bir-birini pisləmək, danlamaqmı]? Xayır! Burada heç bir əsas yox, heç bir fikir də yox. Ancaq şəxsi təərrüzlər [hücumlar, təcavüzlər] və şəxsi rəqabətlər var.

İştə bu mərəzlə məlul olan "İttihad"-da, son nömrəsində məqaləmizin sərlövhəsinə qoyduğumuz "Məmləkətimizin halı nasıldır" ünvanı ilə "Q. b. Qarabəyli" tərəfindən yazılmış bir baş məqalə vardır.

"Məmləkətimizin halı nasıldır?"

"İttihad" izah edir:

*"Bu suala veriləcək cavablar o qədər çox və bir-birinə müxalifdir ki, xaricdən gəlib məmləkətimizin əhvalına, cərəyan edən vüquata [hadisələrə] aşina olmayan bir zat [şəxs] verilən müxtəlif cavablara qulaq asıb eşidəcək olarsa, şəxsi qərarını vermək üçün çox mühüm və müşkül bir mövqedə qalmaq məcburiyyətindədir ki, bunu hər kəsin etiraf etməsi əlzəm və labüddür!"*

Məmləkətin halını tərif və təsvir etmək üçün böylə qapqara bir bədbin gözlüyü taxmaq da müxalifətmidir? Bu, müxalifətdən ziyadə qeyri-səmimi və isterik yazılardır ki, hədəfi pozğunçuluq, xərabiyyətdir.

*"... Məmləkətimiz, istiqlalımız bir qaç mənfəətpərəst şəxsin intriqası ilə böyük bir böhran içində bulunarkən, eyni şəxslərin maskası altında oynaması ilə vətənimiz daxili və xarici müdhiş bir təhlükənin ərəfəsindədir!..."*

Bu sətirləri də mühərririn baş məqaləsinin müqəddiməsində təsəvvür etdiyi xarici bir zat da oxumuş olsa, ilk xatirinə gələcək olan şey bu məmləkətin "oliqarş" halında bulunduğunu fərz etmək olacaqdır. Əcaib şey! Parlaman və cümhuriyyət üsuli-idarəsi ilə yaşayan bir hökumət bir qaç şəxsin intriqası altında bulunduğunu və müdhiş bir təhlükə qarşısında olduğunu "İttihad" mühərriri görmüş, bilmiş də, başqa bir kimsə görüb anlamamışmıdır?

"İttihad"ın son nömrəli məqaləsini – "Məmləkətimizin halı nasıldır?" sərlövhəli yazılarını oxuduqdan sonra məmləkətin halından heç bir şey anlamadığım halda fəqət gərək sağ və gərəksə sol tərəf müxalifləri haqqında qəti bir fikir edindim:

- Məmləkətin halı nasıldır?

Cavab: sağ və sol tərəf müxaliflərinin bihud və bisud [boş və faydasız] və pək ziyadə vətən və məmləkətşikən [vətən və məmləkəti yıxan, dağıdan] hücum və tənqidləri baqi qaldıqca – pək fənadır, qeyri-mütəhəmmildir [dözülməzdir], yə'savərdir [acınacaqlıdır].

İştə "Məmləkətimizin halı nasıldır?" məqaləsindən çıxan zehniyyətlərdən anlaşılacaq bir şey!

*Ə[hməd] H[əmdi]*

## BAKIDA MÜƏLLİMLƏR MƏİŞƏTİ

Vətənin tərəqqi və ümranı ülum [elmlər] və maariflə olduğu kimi və ülum və maarifin intişarı [yayılması] müəllim və ədiblərin təlim və tərbiyələri ilə olduğu bədihidir [aşkardır].

Xüsusən bizim sevgili cavan vətənimiz Azərbaycanda maarifin lüzumu birinci dərəcələrdən məhsubdur [hesab olunur].

Bu axırlarda hökumət dairələrində müəllimlərin maddi halı, bir növ, təmin olmuş kimi müqərrərdir [qərarlaşdırılmışdır]. Fəqət Bakı Bələdiyyə müəllimlərinin halı çox fənadır.

Əvvəla, bədihidir ki, müəllimlik bir müqəddəs vəzifədir və bu vəzifeyi-müqəddəsəni ifa etməkdə birinci şərt müəllimin təmini-maaşıdır. Və maaş da o qədər olmalıdır ki, onları hər bir ləvazimatdan təmin etsin. Çünki müəllimləri başqa əsnaf [siniflər] ilə müsavi tutmaq [olmaz]. Vəzifədən əlavə, hərə kəndilərinə məxsus bir mədaxil yolu axtarıb-aramaqdadır. Bexilafi-müəllimlər [müəllimlərdən başqa] ki, onların maaşı ancaq aldıqları paraya vabəstədir [bağlıdır]. Xüsusən bu əyyamda hər bir şey qiymətcə ru-bətərəqqi olmağa [qiyməti qalxmağa üz tutduğuna] görə, hamı məvaciblə dolananlar tənglik [darlıq, çətinlik] çəkməkdədirlərsə, müəllimlər onlardan artıq ağır məişətə düçar olmaqdadır. Böylə ki, aldıqları məvacib onlara bir həftə olsun belə kifayət etməyir.

Xülasə, böylə gedərsə, müəllimlərin halı daha da fəna və onların halının fənalığı, nəuzübillah [Allah saxlasın], vətən

övzasının [halının] fənalığına baisdir. Yaxşı olardı ki, vətən şərəfinə və xatirinə müəllimlər halını nəzəri-etinaya alıb, Bakı Bələdiyyə İdarəsi də bir təcili təşəbbüsdə ola idi.

*Bakı Bələdiyyə müəllimi:*
*Axund Nəsir oğlu*

**MÜAVİNƏT**

Xilqəti-Adəmdən [Adəmin yaradılışından] bəri insanların yek-digərinə [bir-birinə] olan müavinətləri saiqəsi [səbəbi] ilə, bilcümlə əməl [bütün arzu] və qayələrinə nail olmaqda olduğu hər kəscə müsəlləm [qəbul edilən] bir məsələdir. Müavinət olmazsa, tədviri-ümur ediləm-məyəcəyi kimi [işlərin getməsi, aparılması mümkün ola bilməyəcəyi kimi], intizami-aləmə də xələl gələcəyi izahdan müstəğnidir [izaha ehtiyacı yoxdur].

İştə bu intizami-aləmə xidmət üçün bilümum növi-bəni-başərin [bütün insanların] yek-digərinə müavinət eyləmələri gərək Qüruni-ülada [Qədim dünyada, Antik dövrdə] bulunan filosofların əqvali-məmduhələrində [tərifəlayiq sözlərində] və gərəksə kütübi-müqəddəsədə [müqəddəs kitablarda] və baxüsus [xüsusilə] Qurani-Kərimdə kərrarən təzkar və bəyan [dəfələrlə qeyd və izah] edildiyi kimi, müavinətsiz hər bir əməlin [niyyətin] əqim qalmaqda [yarımçıq qalmaqda, baş tutmamaqda] olduğunu da bittəcrübə müşahidə ediriz. Şu halda, müavinət hər kəs üçün bir xisləti-məmduhə [bəyənilən, təqdirəlayiq xasiyyət] olduğu təsdiq olunduğu kimi, Qurani-Kərim ehkamınca da hər müsəlman üçün bir fərizə olduğu müsəlləm və müəlləndir [şübhəsiz və aşkardır].

Müavinət hər kəs tərəfindən yapıla bilir. Ancaq müavinətin masruf [sərf edilən şey] və mövzusu xüsusunda isabət etdiril[mə]diyi [hədəfə çatmadığı] üçün, yapılan müavinətdən gözədilən qayə və məqsədə müvafiq olunammayır. Bunun üçün ediləcək müavinətin, hər halda, bir əsasa müstənid bulunması [istinad etməsi], qayə və məqsədin hüsula gələ biləcəyi bir tərzdə yapılmasına etina edilməsi təhtəl-zəmində [işin əsasında, bünövrəsində] bulunur.

Bu cümlədən olaraq, yapılmaqda olan müavinətdə görülən bəzi əsəri-müsamihə və nəvaqisi [ehmalkarlıq və nöqsan nişanələrini] ərbabi-diqqətin nəzərinə çarpmaq həsəbi [məqsədi] ilə bir-iki söz söyləməyə məcburiyyət hasil olmuşdur.

Şöylə ki:

Keçənlərdə İttifaq məscidi camaatı tərəfindən cəm və iddixar olunan [yığılan] paradan müqtəzi məbaliğ [lazım gələn məbləğlər] axund, molla və sair məscid müstəxdimini [xidmətçiləri] üçün bir miqdarı tövzi edildikdən [paylandıqdan] sonra, mütəbaqi [geridə] qalan səkkiz min manat mühacirin və məlul möhtacinə ehda və tövzi edilmək [köçkünlərə və ehtiyacı olan əlillərə hədiyyə edilmək və paylanmaq] üzrə Cəmiyyəti-Xeyriyyəyə tərk və təbərrö edildiyi [ianə olaraq verildiyi] məalmə-sar [şadlıqla, məmnuniyyətlə] eşidilmiş və "Zəhmət" qəzetəsində də görülmüşdür.

Bu tədbir və təşəbbüs, həqiqətən, ülviyyətkaranə və müavinətpərvəranə vüqu bulduğundan dolayı müsəbbib və badiləri şayani-təqdir və təzkardır [səbəbkarları təqdirə və yad edilməyə layiqdir]. Çünki müavinətdə isabət etdirmək, məsərfilehini [kimə sərf ediləcəyini] bulmaq əlzəmdir [vacibdir]. Bilcümlə ərbabi-mürüvvət və həmiyyətməndan müavinət üçün füqəraya, züəfaya para və sairə ehda və bu surətlə düçarı bulunduqları zərurətdən təxlis ilə ehya edərlər [Bütün mürvət və qeyrət sahibləri kömək məqsədi ilə yoxsullara və zəiflərə pul və sairə hədiyyə edər və bu surətlə, düçar olduqları ehtiyacdan xilas edərək, onları dirildər, canlandırarlar]. Ancaq, həqiqətən, təsəddüq eylədikləri [sədəqə verdikləri] o füqəra möhtacmıdır, deyilmidir keyfiyyətini isabət etdirəmməzlər və bir də kəndisinə ərzi-ehtiyacla istianə edən [yardım diləyən] fəqir və möhtacini [möhtacları] münfəridən təsəddüq eyləmələrində [ayrı-ayrılıqda sədəqə vermələrində] təsəülə [dilənçiliyə] bir qapı açılmış olur ki, bu məsələ dinən, hökmən müğayiri-həqiqət [həqiqətə zidd] olaraq zühur etmiş olur.

Daha açıqca söyləyəlim ki, bir kimsənə bir füqəraya bir qaç rublə verərsə, ancaq o günkü ehtiyacını təmin edə bilər. Fərdası [sabahısı] günə yenə o füqəra ac qalır. Şu halda bu bir müavinət deyil, biləks [əksinə], şərən [şəriətə görə], hökmən məmnu [qadağan] olan təsəülə alışdırmış olur. Bu füqəraya para verməkdənsə, bir işlə iştiğal [məşğul] etdirmək, hər halda, müavinətdəki məqsəd və qayəni təmin etmiş olacağından, yapılacaq insaniyyətlərə isabət etdirmək əlzəmdir və Avropada və sair mütəməddin məhəllərdə [mədəni yerlərdə] ediləcək müavinət bir üsul və qaydaya tabe tutulmuşdur.

Məsələn, bu gün fransızlar ən zəngin bir millətdir. Bunların içində, əcaba, möhtacini yoxmudur? Əlbəttə, vardır. Ancaq bu xüsusda cəmiyyətlər, klublar təşkil edilərək füqəraya, züəfaya, möhtac və məlulinə [əlillərə] müavinət arzusunda bulunan zəvat işbu mütəşəkkil cəmiyyətlərə ianə verirlər. Və hətta bir çox ərbabi-qina [varlılar] dəxi füqəraya edəcəkləri müavinəti-nəqdiyyəni cəmiyyətlər və klublar vasitəsilə tövzi etdirirlər [payladırlar]. Hətta əcəzə [acizlər] və möhtacin üçün bir daireyi-rəsmi təşkil edərək, bu surətlə möhtacin və müftəqirinin zərurətləri təhvin edilir [yoxsulların ehtiyacları yüngülləşdirilir] və meydanda təsəül edəcək heç bir fəqir bulunmayır.

İştə bu cümlədən olaraq Bakıda da bir çox sənədən bəri müəssəs və mütəşəkkil olan [qurulan və təşkilatlanan] Cəmiyyəti-Xeyriyyə bu vəzifəni bəhəqq [layiqli surətdə] ifa edir. Hətta deyil füqəra və mühacirinə, qəzazədə olan bir taqım üftadeyi-fəlakət və zərurət olan kəsana [qəzanın hökmü ilə fəlakətə və ehtiyaca düçar olan bəzi kəslərə] belə müavinət etməkdə olduqları məal-iftixar müşahidə və istema edilməkdədir [qürurla görülməkdə və eşidilməkdədir]. Şu sırada İrəvanda, Qarsda, Naxçıvanda ermənilərin vəhşətkaranə zülüm və etisafına [təcavüzünə] hədəf olan müsəlman qardaşlarımız Azərbaycana iltica və hicrət edərək [köçüb sığınaraq] soqaqlarda pərişan və sərgərdan bir halda gəzdikləri görülür və bunlara əhali tərəfindən münfəridən [fərdi qaydada] müavinət edilir və tətyibi-xatir [könüllərini xoş tutmaq] üçün fövqəladə fədakarlıqlar icra edilirsə də, diriğ edilməyən [əsirgənməyən] işbu müavinətdə

isabət etdirilib-etdiriləmmədiyi təqdir və təyin ediləmməyir.

İştə bu məqsədə məbni [əsasən], yapılacaq müavinət Cəmiyyəti-Xeyriyyə vasitəsilə yapılarsa, daha ziyadə isabət edilmiş olacaqdır. Hər halda, füqəraya, züəfaya və baxüsus hal-hazırda müavinətə dinən və insaniyyətən məcbur olduğumuz mühacir müsəlman qardaşlarımız üçün ehda və təbərrö [hədiyyə və ianə] ediləcək müavinətin və nağdın Cəmiyyəti-Xeyriyyə vasitəsilə yapılması mütləq lazımdır. Fəqət bəzi yerlərdə bir münasibətlə cəm edilən paraların ticarət və sair xüsusatda istemal edilməkdə [işlədilməkdə] olduğu, məəttəəssüf [təəssüf ki], eşidilmişdir. Şu sırada dinən, insaniyyətən məcbur olduğumuz müavinəti mültəci və mühacirindən diriğ etmək müğayiri-müaşirət və insaniyyət [sığınanlardan və köçkünlərdən əsirgəmək ədəb-ərkana və insaniyyətə zidd] və baxüsus islamiyyətə külliyyən müğayir idügündən [olduğundan], bu kimi müdəxxər [yığılmış] məbləğin möhtacinə tövzi edilmək üzrə Cəmiyyəti-Xeyriyyəyə verilməsini, bil-cümlə möminin və müvahhidin [mömin və Allahın birliyinə inanan] qardaşlarımızın həmiyyəti-insaniyyətpərvəranələrindən intizar eyləriz.

*Z. Ayn.*

## BAKI XƏBƏRLƏRİ

### Türk qadınları kursunun rəsmi-güşadı

Əvvəlcə qəzetəmizdə iş'ar olunduğu vəchlə [bildirildiyi kimi], cümə günü 24 təşrini-əvvəldə [oktyabrda] türk qadınlarına məxsus kursların rəsmi-güşadı [açılış mərasimi] Birinci Milli Ünas gimnaziyasında icra edilmişdir. Rəsmi-güşadda paytaxtımızın ziyalı xanımları isbati-vücud [iştirak] etdikləri kimi, xüsusi surətdə dəvət olunanlardan qeyriləri daha gəlmiş və təxminən 100-120-yə qədər xanım hazır bulunmuşdur.

Saat 12-də Sara xanım Xuramoviçin təbrik nitqi ilə rəsmi-güşada başlanmış və xanım əfəndi fəsih bir lisanla irad buyurduqları [səlis bir dillə söylədiyi] nitqlərində xanımlar öhdəsinə tərəttüb edən vəzaifdən [düşən vəzifələrdən] və onların həyati-bəşərdə oynadığı rollardan bəhslə, əhvali-zamana aid başqa məlumatlar da vermişdir.

Bədəhu [bundan sonra] Şəfiqə xanım Qasprinski Krım türk xanımları tərəfindən azərbaycanlı həmşirələrinə [bacılarına] salam yetirərək təbrik etmiş və maarif yolunda atdığı addımlarının müvəffəqiyyətli olması arzusunda bulunmuşdur.

Üçüncü olaraq sözə başlayan Hənifə xanım Məlikov olmuşdur ki, bu möhtərəmə xanım qadınların işbu təşəbbüslərini təqdirlə, mütəşəbbislərinə təşəkkürlər edərək, başlanılan gözəl işi yarım buraxmamağı və təşəbbüslərində davam etməyi tövsiyə etmişdir. Və sonra yenə bir qaç xanım tərəfindən nitqlər söylənilmiş və təbriklər edilmişdir.

Kursa davam etmək üçün ərizə verən qadınlar üç sinfə ayrılmışlardır: birinci sinfə heç bilməyənlər, ikinci sinfə az bilənlər və üçüncü sinfə də şəhər ibtidai və ali-ibtidai məktəblərini bitirənlər.

Onu da qeyd və əlavə etməliyiz ki, qadınlarımız kurslara ziyadə rəğbət göstərərək, artıq bir şövq və həvəslə gəlmiş və əvvəlcə ərizə verənlərdən başqa, həman məclisdə kəndilərini yazdıranlar dəxi olmuşdur.

Saat 2 tamamda rəsmi-güşad bitib, xanım əfəndilər dağılmışlardır. Müvəffəq olmalarını arzu ediriz.

### Bələdiyyə İdarəsində

Bələdiyyə İdarəsi Maarif Nəzarətindən dövləti məktəblər müəllimlərinin maddi cəhətlərinin təmin edilməsi haqqında məlumat istəmişdi. Nəzarət xəbər vermişdir ki, məzkur [deyilən] məlumat "Hökumət əxbarı"nın 15-ci nömrəsində dərc edilmişdir. Əlavə olaraq, bu vaxtadək heç material hazır edilməmişdir.

### Küçələrin təmizliyi haqqında

Üçüncü Zükur [oğlanlar] gimnaziyası müdiriyyəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, məktəbin ətrafı həftələrlə təmizlənmədiyindən bir məzbələ [zibillik] halına gəlmişdir. Bunun isə yüzlərlə belə məktəblilərə hifzüssihhə [gigiyena] nöqteyi-nəzərindən fəna təsir edəcəyi ehtimalı vardır. Müdiriyyət rica etmişdir ki, bu haqda lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

### Ermənikəndi

Ermənikəndi dairəsi pristavı Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir, iki həftədən ziyadədir ki, Ermənikənd dairəsi işıqdan məhrum olmuşdur. Elektrik lampaları yanmayır. Buna görə də polis nəfəratı üçün kəndi vəzifələri ifasında müşkülat çıxır. Pristav rica etmişdir ki, tezliklə işıq buraxılması üçün iqdamatda bulunulsun [addımlar atılsın].

### Bələdiyyə Məclisi intixabı ətrafında

Daxiliyyə Nəzarəti Bələdiyyə rəisinə xəbər vermişdir ki, "Hökumət əxbarı"nın 15-ci nömrəsində elan edilmiş Bələdiyyə Məclisi intixabatı [seçkiləri] qanun layihəsinə intixabatın qaydası daxil olmamışdır. Daxiliyyə Nəzarəti qaydanı kəndi nakazında [təlimatında] xəbər verməlidir. Bundan ötrü də Nəzarət Dəftərxanası müdiri Taprov, Zemstvo şöbəsi müdiri Şervaşidze və Nəzarət yuriskonsultu [hüquq məsləhətçisi] Qadaseviçdən ibarət bir komisyon təşkil edilmişdir.

### Qadınlar kursu

Türk-islam qadınları üçün yeni açılmış və rəsmi-güşadı cümə günü icra edilmiş olan qadınlar kursunda sabah səşənbə (salı) [çərşənbə axşamı] günü təşrini-əvvəlin 28-də dərslərə şüru ediləcəkdir [başlanacaqdır]. Dərslər saat 4-də başlanaraq 6-da qurtaracaqdır.

### Məcid Möhsünovun işi

"Əliəkbər Hüseynov" adlı qaraqol gəmisinin komandanı Məhəmmədovun əmri ilə eylülün 22-də Petrovskdan [Mahaçqaladan] varid olmuş [gəlmiş] "Feniks" nam gəmi ilə gəlmiş İran təbəəsi Məcid Möhsünov gəmidən düşürülmüşdür. Məzkur [deyilən] Möhsünovun 1.000.000 (bir milyon) manata qədər Nikolay parası varmış. O gecəsi Möhsünov qətl edilərək paraları qarət olunmuşdur.

İşbu işin ilk istintaqı Azərbaycan Hərbi Məhkəməsi fövqəladə müşkül işlər müstəntiqi fon Fişerə mühəvvəl edilmişdi [tapşırılmışdı]. Bu günlərdə istintaq itmama [tamam] yetir. Burada hərbi müstəntiq tərəfindən üç nəfər müttəhim tu-

tularaq təhti-məsuliyyətə cəlb edilmiş [məsuliyyət altına alınmış] və bunların ikisi mühafizə altında saxlanır.

**Rüşvət üstdə dustaq olanlar**

Mülkiyyə Baş müfəttişinin binagüzarlığı [sərəncamı] ilə Ərəş uyezdi ikinci uçastok pristavı Bəhmən bəy, üçüncü uçastok pristavı İsmayıl bəy, Şəki 3-cü uçastok pristavı Fərrux bəy, 4-cü uçastok pristavı Mahmud bəy rüşvət almaq və qanunsuz müamilələrdə [rəftarda] bulunmaqla müttəhim edilməklərinə görə, polisə nəzarətində həbsə alınmaları ilə bərabər, mal və mülkləri hökumət naminə zəbt və həcz [müsadirə] edilmiş və özlərinə şiddətli cəza edilmək üzrə işləri məhkəməyə verilmişdir.

**Ərizələr türkcə yazılmalı**

Mülkiyyə Baş müfəttişi dəftərxanası idarəyə müraciət edənlərdən rica edir ki, müfəttişliyə verilən hamı kağız və ərizələri yalnız türkcə yazsınlar.

**İngilis heyəti-əsgəriyyəsi**

Bakıya 6 nəfərdən ibarət bir ingilis heyəti-əsgəriyyəsi gələcəyi gözlənir. Heyət başında kapitan Delli durur.

**"Bednota" qəzetəsi**

"Bednota" qəzetəsi 10 min manat cərimə edilmişdir. Bundan əlavə Müdafieyi-Dövlət Komitəsinin 11 iyun tarixli qərardadi-icbarisinin 3-cü bab [fəsil] 1 və 2-ci maddələri mövcibincə [maddələrinə əsasən], həman qəzetənin qapanması haqqında binagüzarlıq edilmişdir [sərəncam verilmişdir].

**Birjada**

Kerenski minlik 1.030-1.150 manata qədər, 250-lik kəndi qiymətindən bir faiz fəzlə və xırda 10 faiz əskikdir. Nikolay 5 yüzlüyü 850-1.600 manata qədər, yüzlüyü 230 manatdan 330 manata qədər və xırdası isə 50-80 faizə qədərdir. Osmanlı kağız lirəsi 210 manat və Zaqafqaz bonu min manata 20 manat fəzlədir. Osmanlı altun lirəsi 1.000 manat, altun onluq 1.200 manat, imperial 800 manat və Avstriya altunu 2.250 manatdır. Gümüş manat 90 manat və xırda gümüş para 35 manatdır. Susinin topu 1.050 manata gedir. Bu gündən paralar qiymətinin düşmək ehtimalı vardır.

**PARLAMAN KOMİSYONLARINDA**

- Təşrini-əvvəlin [oktyabrın] 20-də Ləvazim komisyonundan məbusların təzayüdi-maaşı [maaşlarının artırılması] haqqında bir qanun layihəsi Parlamanın Ləvayehi-qanuniyyə [Qanun layihələri] şöbəsinə varid [daxil] olub, 22-də Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

- Təşrini-əvvəlin 20-də Maarif Nəzarətindən Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında üçüncü bir maarif müfəttişi məmuriyyəti təşkili haqqında bir qanun layihəsi Parlamanın Ləvayehi-qanuniyyə komisyonuna və Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

- Təşrini-əvvəlin 21-də Ümuri-Xeyriyyə Nəzarətində [Sosial Təminat Nazirliyində] Azərbaycan Cümhuriyyəti Ünvan-Təqvimi nəşr etmək üçün Ümuri-Xeyriyyə naziri sərəncamına 122 min manat





para buraxılması haqqında bir qanun layihəsi Parlamanın Ləvayehi-qanuniyyə şöbəsinə varid olub, 25-də Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

- Təşrini-əvvəlin 21-də xüsusi şəxslər təhtindəki [tabeliyindəki] meşələrin hökumət təsərrüfünə [istifadəsinə] keçirilməsi haqqında, Azərbaycan əhalisinin torpaq cəhətincə təmin edilməsi haqqında qanun layihələri Ziraət Nəzarətindən [Əkinçilik Nazirliyindən] Parlamanın Ləvayehi-qanuniyyə şöbəsinə varid olub, Torpaq komisyonu müzakirəsinə göndərilmişdir.

- Təşrini-əvvəlin 22-də Maliyyə Nəzarətindən sabiq təsərrüf sandıqlarının [əmanət kassalarının] 12.000.000 (on iki milyon) manat borcunun dövlət xəzinəsindən verilməsi haqqında bir qanun layihəsi Parlamanın Ləvayehi-qanuniyyə şöbəsinə varid olaraq Parlaman müzakirəsinə idxal olmuşdur.

- Təşrini-əvvəlin 21-də Maarif Nəzarətindən Azərbaycanın Birinci Milli Ünas edadisi cənbində [nəzdində] açılacaq uşaq bağçası haqqında bir qanun layihəsi Parlamanın Ləvayehi-qanuniyyə şöbəsinə varid olmuşdur.

- Təşrini-əvvəlin 25-də Ədliyyə Nəzarətindən cəza işlərinin məhkəmə məsarifi qərarında bəzi nöqtələrinin tədili [düzəldilməsi] haqqında, hüquq davalarında məhkəməyə çağırılmış şahid, müməyyiz [mütəxəssis] və ruhanilərə veriləcək mükafat miqdarının təbdili [dəyişdirilməsi] haqqında və məhakimati-cəzaiyyədə [cəza məhkəmələrində] şahidlərin üsuli-istintaqında bəzi nöqtələrin tədili haqqında qanun layihələri Parlamanın Ləvayehi-qanuniyyə şöbəsinə varid olmuşdurlar.

**FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR**

**"Müsavat" fraksiyasında**

Məlum olduğu üzrə, Məclisi-Məbusanda "Müsavat" fraksiyası ilə Bitərəflər fraksiyasının əksər əzası [üzvləri] birləşmişdir. Bunlardan bitərəflər bəzi əsasi məsələlərdə sərbəstliklərini baqi [yerində] saxlamaq üzrə "Müsavat" platformasını qəbul etmişlərdir. Dün həman müttəhid [birləşmiş] fraksiyanın birinci iclası vaqe olmuşdur. Fraksiya rəisi Rəsulzadə Məhəmməd Əmin cənabları sabiq Zaqafqaziya Müsəlman Milli Mərkəzi Komitəsi Seymində və Milli Şurada bu üzvlərin hər daim bərabər çalışdıqlarını qeydlə, müsavatçılarla bitərəflərin həmrəy olduqlarını və həmişə bərabər çalışa biləcəklərini qeydlə, bu iki ünsürün bu gün bir fraksiyada birləşmələrini təbrik etmişdir. Bədəhu [sonra] mühüm məsələlər və əzcümlə [o cümlədən] yeni Kabinə təşkili məsələsi müzakirə edilmiş və bu məsələdə bütün fraksiya əzasının həmrəy olduğu anlaşılmışdır.

**Cəmiyyəti-Xeyriyyədə Yardım**

- Həsən Yusif oğlu, Dursun Osman oğlu, Mustafa Nuri oğlu və Süleyman Şakir oğlu nam [adlı] 4 nəfər türk əsirinin hər birinə bilet və 200 manat para və bunlardan başqa da 5 nəfər türk əsirinin hər birinə bilet və 150 manat para Cəmiyyəti-Xeyriyyə tərəfindən verilib, Batuma göndərilmişdir.

- Batuma getmək üçün Cəmiyyəti-Xeyriyyəyə müraciət edən iki nəfər könüllü təşkilatından gəlmiş türkün hər birinə bilet və məxaric üçün 200 manat para verilmişdir.

- Zəngəzur qaçqınlarından Ağakişi Baxış oğluna Gəncəyə getmək üçün Cəmiyyəti-Xeyriyyə tərəfindən bilet və 100 manat para verilmişdir.

- 3 nəfər İrəvan qaçqınlarının Axısxaya getmələri üçün Cəmiyyəti-Xeyriyyə tərəfindən hər birinə bilet və 100 manat para verilmişdir.

- Qars qaçqınlarından Güllü Məhəmməd qızı nam bir arvadı Rüstəm Məhəmmədzadə Əmirov kəndi evində saxlamaq üçün Cəmiyyəti-Xeyriyyədən götürmüşdür.

- Bakıda sükunət edən Türbət Yunis qızına Cəmiyyəti-Xeyriyyə tərəfindən 70 manat ianə verilmişdir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### Mütəallimlər iclası

Cümə günü təşrini-əvvəlin 24-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" dairəsində dəvət olunmuş müsəlman mütəallimlərindən [şagirdlərindən] 150 nəfəri mövcud idi. Məclisə sədr təyin olundu: Böyükağa Axundzadə, katib Qurban Musazadə.

Sədr mütəallimləri[n] bura toplanmağı barəsində izahat verdikdən sonra, Əbdülvahab Məhəmmədzadə əfəndi mütəallimlərə dair bir qədər məlumat verdi. Sonra sədr məclisi açaraq, məsələ – müsəlman mütəallimlərinin kəşfiyyat təşkilatının təəssüsü [qurulması] haqqında bəyanat verərək təşkilata heyət seçməyi təklif edir.

Namizədlər göstərilib heyətə Şücaəddinzadə, Tağızadə, Axundzadə, Musazadə və Rəhimzadə seçilirlər.

Gələn cümə yenə yoldaşların ümumi iclası dəvət edilməsi və seçilmiş heyət tərəfindən gələn cüməyə qədər bu təşkilatın nizamnaməsi tərtib və məclisə təqdim edilməsi təhti-qərara alındı.

### İclas

Bu gün təşrini-əvvəlin 27-si axşam saat 7-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Bakı Komitəsi ilə fraksiyasının müttəhid [birgə] iclası təyin edilmişdir.

## AZƏRBAYCANDA

### Salyandan
### Maarif Cəmiyyətinin son halları

1912-ci sənələrdə təsis olunmuş Maarif Cəmiyyəti intəhasız zəhəmata mütəhəmmil olmaları [hədsiz zəhmətlərə dözmələri] sayəsində kəndi məsarifatı ilə məktəblərini vücuda gətirməyə ancaq noyabr aylarında 1914-cü sənədə güşadına [açılmasına] müvəffəq olur.

Qüvveyi-maddiyyə və mənəviyyəsinin təqviyəsi [maddi və mənəvi gücünü artırmaq] üçün fövqəladə ibrazi-hüməm və fəaliyyətləri şayani-təhsindir [qeyrət və fəaliyyət göstərmələri alqışa layiqdir].

Güşad etdikləri məktəbi-edadiyyənin sənədə məkatibi-rəsmiyyə məsarifatından [rəsmi məktəblərin xərclərindən] ikiqat daha artıq ziyadə sərf etmələri məcburiyyətində ola-ola yenə fədakarlıqlarından bir an geri durmazdılar. Hər bir müşkülatın önünü almaq, mümaniətləri bərtərəf etməklə [maneələri aradan qaldırmaqla] bərabər, qüsur və nöqsanlarını islah edə-edə bir vasiteyi-nicat və vəsileyi-tərəqqi [tərəqqi yolu] arardı.





İkinci səneyi-tədrisiyyəsində, yəni 1916-cı sənədə Salyanın abu-hava cəhətincə müəllimlərin imtinası səbəbindən məktəb get-gedə müşkülləşdi. Müdir və müəllimlər gəlmək istəmədilər. Buna məbni [buna görə], Cəmiyyət məktəbin hökumət məxarici ilə idarə edilməsinə ciddi bir surətdə iqdam etdi [təşəbbüs göstərdi]. Hökumət də gunagun [müxtəlif] etirazlarla rədd etməyə qalxdı.

Etirazların ən mühümü:

*"Cavad mahalında yaşayanlar xristian olmayıb, ancaq müsəlmanlardan ibarət bir məktəb olacağı təqdirində hökumət razı olammaz. Lakin yüzə on faiz xristian olduğu ehtimalında höku-mət kəndi öhdəsinə qəbul edəcəyinə ümid verir."*

Zavallı Maarif Cəmiyyəti şu ittifaqdan bəhrəyab olmaq [bu fürsətdən istifadə etmək] üçün hökumət sərzənişlərinə köksləri sipər, acı günlər ilə biintəha əzablar çəkməyə səbir etmişlər.

Deməκ ki, ümum Cavad qəzasının müsəlman çocuqlarının həyat və məişətləri, səadət və tərəqqisi ancaq on nəfər xaxol balalarının xatirəsi üçün açılacaq sözlərinə təhəmmül etmişlər!?!

Müsəlmanların təmini-istiqbalı [gələcəyinin təmin edilməsi], ümid yolu, vasiteyi-nicatı, əcəba, kimlərə bağlı olmuş!!!

Şu sırada afitabi-hürriyyət ləməpaş olaraq [azadlıq günəşi parlayaraq] ənvarı [nurları] hər tərəfə saçılmaqla, hər kəsdə bir həyat, hər kəsin çöhrəsində bir sevinc, simasında bir bəşaşət nümayan oldu [xoşbəxtlik göründü]. Lakin cahanı inqilab tufanı tutduğu kimi, şu yerlərə də sirayət etdiyindən, Cəmiyyət və məktəb də başqa bir vəziyyət, başqa bir inqilab aldı. Ehtiyac gün-gündən izdiyad etdi [artdı]. Türüq və məabir [nəqliyyat və rabitə] kəsildi. Əxbarat qət edildi [xəbərlər kəsildi].

Hər kəs kəndi qayğısında, kəndisini mühafizə etmək fikrində oldu. Cəmiyyətdə də paralar qurtardı, son halına yetişdi.

1918-ci sənədə Azərbaycan hökuməti məktəbi kəndi himayəsinə aldı. Cəmiyyəti də əziyyətlərdən xilas etdi. Cəmiyyət kəndi vəzifeyi-milliyyələrindən daha əl çəkib guşeyi-nisyanda inziva etdi [bir küncə çəkilərək unuduldu].

1919-cu səneyi-dəvamiyyəsində 6 sinif güşadı ilə 270 nəfərə baliğ [çatan] şagirdana müvəffəq olmuş şu məktəb bu gün ümum Cavad mahalında, bilxüsus [xüsusilə] Muğan torpağında qiymətdar yadigarlardanədd [hesab] edilməlidir. Bu gün maarif qapısı, bilafərqi-məzhəb və din [məzhəb və din fərqi olmadan] hər bir millət çocuqlarına məkşufdur [açıqdır].

Şu cəhətdən yüzlərcə toplanan şagirdan bu gün maarif qapısı ağzında toplanmadadır, təhsili-ülum etmədədir.

Lakin zavallı məktəbin əhvali-imrariyyə və övzayi-haliyyəsindən [necə davam etdiyindən və indiki vəziyyətindən], təlim-tərbiyəsindən bu haladək bir kimsə istifsar etməmiş [soruşub-öyrənməmiş], əhvalından xəbərdar olmamışdır.

Məktəbi-edadiyyəmiz odasızlıqdan sıxıntılar çəkir, müəllimsizlikdən əziyyətlər çəkir. Nə müəllimlər gəlir və nə toplanan şagirdə odalar kifayət edir. Şu mərəz müalicəsinə, şu ehtiyac müdafiəsinə qarşı mübarizə, yaxud mücahidə [səy] edən bir zat [şəxs] meydani-maarifdə canfəşanlıqlarla minnətdar etdimi?! Xayır, xayır! Məktəb kəndisi ağlayır, kəndi-kəndinə im-

dad arayır, çarə arayır. Lakin heç bir cəmiyyətlərdən ləbbeyk [buradayız, nə lazımdır, əmrindəyiz] sədası gəlmədi.

Maarif Cəmiyyəti də ölülər cərgəsində olduğu üçün kəndi övladının ağlar səsini belə eşitmədi.

Ancaq Bələdiyyə İdarəsi bu xüsusda iclaslar yapdı. İclasın təmdidindən [uzanmasından] məkatibə soyuq qan ilə baxıb kabus hüsula yetirməkdən başqa bir nəticə vücuda hələ gəlməmiş. Halbuki şu ittifaqlarda istecali-fövri olaraq [belə hallarda dərhal hərəkətə keçərək] fürsəti fövt etməksizin əncama yetirməliyiz. Zira vaxt keçir, hər bir saat və bəlkə hər bir saniyə təlim-tərbiyə üçün qiymətdar vaxtlardanədd [hesab] etməlidir. Çünki ümum məktəb şagirdləri maarif məşəlləri ilə gələcək vətən balalarını istiqbal edəcəklər [qarşılayacaqlar].

Ümidi-həyat, təmini-istiqbal, tərəqqiyyati-islam ümum cavan mütəallimlərimizin [şagirdlərimizin] bəslədiyi amal və əfkarı [fikirləri] olacaqdır. Bu amal və əfkar müəssisələri bizdə o vaxt ancaq bircə Cəmiyyəti-Maarif oldu. O vaxt nə Bələdiyyə İdarəsi, nə başqaları mövcud deyildi. O vaxt bugünkü kimi milli məktəblərimiz, idarələrimiz yox idi.

Ancaq bircə cəmiyyət, o da Maarif Cəmiyyəti!

Əcəba, şimdi şu cəmiyyət nərədə yaşayır, nərələrə varmış? Kəndi zəhəmatı ilə millətdaşına vəz etdikləri [qoyduqları] o müqəddəs yadigarın əhvalından şimdi xəbərdardırmı? Şimdi yaşayırmı? Məktəb nərədə? Çocuqları harada ömür edib? Mürəbbiləri [tərbiyəçiləri] kimdir?

Xayır, xayır!

Bu gün o ruhlar, o qəlblər ölmüş, hər kəs ölmüş kimi durur.

Ey Maarif Cəmiyyəti! Guşeyi-inzivadan [atılıb unudulduğun bucaqdan] qalx. Əziyyətlərlə əkdiyin maarif ağacının meyvələrinə tamaşa et!

Zəhmətlərlə bəslədiyin maarif gülüstanına ətfi-nəzər et [nəzər sal]!

Ey cəmiyyətlərimizdə iştirak edən maarif fədailəri! Qiyam ediniz də [ayağa qalxınız da], şəfaət [şəfqət, mərhəmət] əlinizi uzadınız ki, Cənabi-Haqq indində əcri-cəzil bulasınız [Allah qatında böyük mükafat tapasınız].

Ey vətəndaşlar! Ey ixtiyar babalar! Maarif nurundan uzaq qaçmayınız. Bu gün bizim irzimizi, namusumuzu, milliyyətimizi, hürriyyətimizi, hökmranlığımızı, bilkülliyyə [bütün] varlığımızı mühafizə edib vəqayə edən [qoruyan] ancaq maarif nurudur. Hümmət və qeyrət əlini uzadıb həm məkatibimizin və həm cəmiyyətlərimizin tərəqqiyyat və davamına çalışalım. Vabəsteyi-ümidi-nicat ancaq bunlardadır [Qurtuluş ümidi ancaq bunlara bağlıdır].

*Hüseyn Qasım*

## GÜRCÜSTANDA

**Romaya əzimət**

Gürcü Xariciyyə Nəzarəti idarəsinin direktoru Lordkipanidze təşrini-əvvəlin [oktyabrın] 21-də Romaya əzimət etmişdir [yola düşmüşdür].

**Gürcüstan Müəllimləri Qurultayı**

Təşrini-əvvəlin 21-də Tiflisdə Əvvəlinci Zükur [oğlanlar] gimnaziyası imarətində Qoladzenin təhti-sədarətində [sədrliyi ilə] Gürcüstan Müəllimləri Qurultayı açılmışdır. Qurultayda 300-ə qədər əşxas [şəxslər] iştirak edir. Müəllimlərin iqtisadi cəhətdən müşkülatla həyat keçirdiklərinə dair Kutais nümayəndəsi Toradze məruzədə bulunmuşdur. Məruzə sameinə [dinləyənlərə] ağır təsir bağışlamışdır. Axırda müəllimlərin hallarını yaxşılaşdırmaq və onların maaşlarının 4000 manata qədər artırılması və dövləti xidmətçilərə verilən kimi onlara da birinci zəruri şeylərin verilməsi haqqında Maarif nazirinə məruzədə bulunmaqdan ötrü 5 nəfərlik bir komissiya intixab edilmişdir [seçilmişdir].

**Ermənistan və Könüllü ordunun nəfinə ianə**

Bakı mədən sahiblərindən erməni Saturov erməni ehtiyacı nəfinə [xeyrinə] bir milyon və Könüllü orduya dəxi o qədər ianə etmişdir.

**Həbs edilmiş bolşeviklər**

Gürcüstan Daxiliyyə nazirinin əmri ilə həbs edilmiş bolşeviklərin həbsi müddəti üç ay dəxi artırılmışdır.

## TEATRO VƏ MUSİQİ

**Teatro mövsümünün rəsmi-güşadı**

Cümə günü oktyabrın 24-də Dövlət Teatrosunda Dövləti Teatro heyəti tərəfindən teatro mövsümünün rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu.

Rəsmi-güşada xüsusi dəvətnamələrlə Parlaman, hökumət üzvləri və ümumi hökumət müəssisələri xidmətçiləri dəvət edilmişlərdi. Bütün lojalar və 10-cu cərgəyə qədər parter stulları məzkur zəvat [deyilən şəxslər] tərəfindən işğal edilmişlərdi.

Pərdə açıldıqda Dövləti Teatro heyəti üzvləri Qulamrza Şərifov başda olmaq üzrə ümum artist və artistkalar səhnədə camaata təqdim edilərək, teatronun mübaşiri Rza Zaki əfəndi müxtəsər bir nitqlə Qafqaziya və ələlxüsus Bakıda müsəlman səhnəsi tarixçəsi ilə aşina və axır illərin ərzi-müddətində səhnənin nə qədər böhranlı hallar keçirib və bu gün müvəffəq olduğu səadətdən dolayı cümlə artist və artistkaların minnətdar olduğunu bəyanla, ərzi-təşəkkür etdi.

Fəqət əfvlərinə məğrurən [bağışlayacaqlarına inanaraq], nitqi əsnasında tarixə heç də əlaqə və münasibəti olmayan bəzi sözlərin yersiz olduğuna diqqətini cəlb etmək istərdik. Hökumət Teatro heyətinin ilk iqdamatı [təşəbbüsü] ərəfəsində öylə namünasib cümlələr camaata söylənməsinin fəzlə olduğu zənni-acizanəmizdir.

Bədəhu [ondan sonra], məzkur heyət artistləri tərəfindən İsa bəy Aşurbəylinin bir pərdə əlavə ilə üç pərdəli "Azərbaycan" pyesası mövqeyi-tamaşaya qoyuldu.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi, bəndənin neçə kəlimə ərzi-təşəkkürünün dərcinə müsaidə buyurmaları mərcudur [xahiş olunur].

18 təşrini-əvvəl tarixində Balaxana neft cəmiyyəti Balaxana dairəsi mədənində Süleyman Mustafa oğlunun toy məclisində məhəlli [yerli] fəqir məktəb

şagirdlərinə kitab və yazı ləvazimi alınması üçün 134 (yüz otuz dörd) manat ianə toplandı. Maarifə əhəmiyyət verərək hasili-rəncindən [zəhmətinin bəhrəsindən] maarif yolunda ianə etməyi fəhlə miyanında [arasında] birinci dəfə olaraq rəsm qoyan [adət halına gətirən] zəhmətkeş qardaşlarıma təşəkkürümü təqdim edirəm.

*Məhəllə vəkili: Abdulla Xeyrov*

**Elan**

Azərbaycan Dəmiryolunun İdarəsi bununla elan edir ki, Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin icazəsi ilə həmin oktyabr ayının 23-dən etibarən Bakı şəhər istasyonunun anbarlarında çox saxlanan və təzə gələn mallardan atidəki [aşağıdakı] xərclər alınacaqdır:

Pambıqdan gündə 5 qəpik puduna. Qeyri mallardan gündə 10 qəpik puduna.

*T-300*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Motosiklet**

"Moto-Dyo" firmasından hər bir ələhəsi [ləvazimatı] və yerişi ilə satılır.

Nikolayevski küçədə nömrə 18, "Təbriz" mehmanxanasının kontoruna müraciət etməli.

*11476*

**Diş həkimi**
**R. M. Altman**

Gəlib və qəbul edir naxoşları gündüz saat 8 - 2-yədək, axşam saat 4 - 7-yədək. Müsəlman xanımları üçün əlahiddə qəbul olunan otaq. Adres: Şamaxinka, ev nömrə 20. Aptekin qarşısında.

*11417*





**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Təbib**
**Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres: Ofiserski küçədə (Nikolayevski küçənin küncündə) nömrə 6. Telefon 41-14.

*11430*

**Diş həkimi**
**A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Diş həkimi**
**S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Professor Buyneviçin**
**müsəkkər [sakitləşdirici] kabinetinin**
**sabiq assistenti**
**Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Diş müalicəxanası**
**D. İ. Zeylidzon**

Xüsusi qızıl və platina işləri. Kötük və körpülər və farforlar. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur məhzən növbətə yazılmaqla səhərlər saat 9-dan 2-yədək, axşamlar saat 5-dən 7-yədək. Ünvan: Malakanski küçə, ev nömrə 1. Telefon nömrə 19-55.

*11442*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**İstanbul doktor və bakterioloqu**
**Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası. Telefon nömrə: 49-87.

*1470*

Kağız qabı (bumajnik), içində bir çox qəbzlər ilə itibdir. Tapanlardan xahiş edirəm mükafatı ilə bu adresə gətirsinlər: Naberejnaya küçədə Rəsul Tağıyev İraninin kontoru. Telefon nömrə 36-53.

*11482*

### Elan

Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] idarəsi bununla elan edir ki, həmin oktyabr ayının 31-də, gündüz saat 12-də, Nəzarətin binasında (Sadovaya küçə, Lalayevin evi nömrə 3) atidəki şeylərin torqu [aşağıdakı şeylərin hərracı] olacaqdır:

Siyahı

1) Bir xalça, İran 3-4 - 3500 rublə;

2) Bir xalça, Qafqaz işlərindən - 2-3 - 2000 rublə;

3) 114 ədəd xalça, yaxşı toxunmuş, cürbəcür boylarda - biri 700-dən 1000 rubləyədək;

4) 50 ədəd miyanə xalçalar - biri 350 rubldən 700 rubləyədək;

5) 5 ədəd orta boylu palazlar - biri 400 rubldən 600 rubləyədək;

6) 7 ədəd pol [döşəmə] xalçaları (fərş) - biri 250 rubldən 400 rubləyədək;

7) 2 ədəd döşəküzü - hər biri 250 rubldən;

8) 4 ədəd Asiya pərdələri - hər biri 100 rubldən;

9) 3 ədəd qırmızı çit dəstmallar - biri 100 rubldən;

10) 1 ədəd adi Asiya pərdəsi - 50 rublə;

11) 1 palto, jilet və pidjak - hamısı 2000 rublə;

12) İşlədilməmiş ipək sap 11 pud 10 girvənkə - pudu 10 min rubldən;

13) İşlədilmiş ipək sap 11 pud 12 girvənkə - yarım pudu 13000 rubldən;

14) 3 ədəd ufacıq ipək yorğan - biri 200 rubldən;

15) 2 ədəd yun döşək - biri 200 rubldən;

16) 98 ədəd ipək kəlağayı - biri 150 rubldən;

17) 36 ədəd qurtarmamış kəlağayı - biri 80 rubldən;

18) 1 ədəd böyük tük balış - 250 rublə.

*T-303*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

### Mənfi bir ittihad

səh. 516. "Borciyalar": Katolik dünyasına iki Roma papası və onlarla kardinal verən, xüsusilə XV əsrdə katoliklərin dini həyatına böyük təsir göstərən ispan-italyan əsilli Borciya ailəsi nəzərdə tutulur.

"qanlı sultan Əbdülhəmid": 1876-1909-cu illərdə Osmanlı sultanı II Əbdülhəmid.

### Qəzetələrdən

səh. 520. "Reyms" [Reims]: Fransanın şimal-şərqində şəhər və kommuna.

səh. 521. "Çrezvıçayka": Ümumrusiya Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyası.

"yeni stil, əski stil": söhbət Yuli təqviminin (köhnə stilin) yerinə Rusiyada 1918-ci ilin əvvəlindən etibarən Qriqori təqviminin (yeni stilin) tətbiq edilməsindən gedir.

səh. 522. "Kiyevlyanin": Kiyevdə 1864-cü ildən 1919-cu ilin dekabrına qədər rus dilində nəşr edilmiş qəzet. Təsisçisi və ilk redaktoru tarixçi Vitali Yakovleviç Şulgin olmuşdur. 1919-cu ildə qəzetin redaktoru Vitali Şulginin oğulluğu Vasili Şulgin idi.

### Türkiyədə

səh. 523. "hüquqi-məşruəsini tanıtmaq": "hüquqi-məşrutəsini tanımaq" getmişdir.

səh. 524. "amalını müdrik": qəzetdə "amalını dərk" getmişdir.

### Müavinət

səh. 528. "İttifaq məscidi": Bakıda indiki Əjdər bəy məscidi nəzərdə tutulur.

### Bakı xəbərləri

səh. 531. "Taprov": bu soyadı qəzetdə təhrif edilmişdir; "Taprov" kimi bərpa etdik.

səh. 532. "Bednota": Bakıda nəşr edilmiş bolşevik qəzeti.

"susinin": bu sözə məna vermək mümkün olmadı.





**Çərşənbə axşamı, 28 oktyabr 1919-cu il, nömrə 307**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Şəşənbə, 3 səfərül-müzəffər sənə 1338. 28 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

* * *

Məsai [Əmək] naziri və Məsai Nəzarəti qulluqçuları kamali-yəs və təhəssürlə öz sevgili həmkarları Məsai müfəttişi David Aleksandroviç Gelovani-Ekkelin naməlum bədəfkarlar [canilər] tərəfindən fəcianə bir surətdə qətl edildiyini elan edirlər. Təşyiyi-cənazə [cənazənin yola salınması] bu gün təşrini-əvvəlin 28-də saat 10-da Mixaylovski xəstəxanasından vaqe olacaqdır.

*T-407*

### ELAN
### Kompaniya "Azərbaycan"
### Komissioner həmlü nəqli-İran
**[İran yükdaşıma komissioneri]**

Batumda yeni güşad edilən [açılan] kompaniyamız əmvali-ticariyyə [ticarət malları] alır və satır; hər növ əşyanın idxal və ixrac müamilatını dəröhdə edir [əməliyyatlarını öhdəsinə götürür]. Müraciət edəcək müştərilərə böyük təshilat [köməklik] göstərir.

Adres: Batum, Naberejni, nömrə 12. Telefon 109.

Kompaniya "Azərbaycan".

*11489*

### DÖVLƏT TEATROSU
**Azərbaycan Dövləti Teatro heyəti**

Səşənbə günü
oktyabrın 28-ndə axşam
Dövlət Teatrosunda
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Gaveyi-ahəngər"**
Şəmsəddin Sami bəyin əsəri
5 pərdədə
Tamaşa başlanacaq axşam
saat 8 tamamda.
Biletler teatrın kassasında
satılmaqdadır.
Rejissor: Sidqi Ruhulla.
Müavini-rejissor: Hacıbaba Şərifov.
Dövləti Teatro heyəti müdiri:
Qulamrza Şərifov.
Gələcək tamaşa
oktyabrın 31-ndə "Əbülülə".
Mövqeyi-tamaşaya
qoyulmaq üçün hazırlanır:
"Yezid ibn Müaviyə" və
"Trablis müharibəsi".
Dövləti Teatro heyəti vəkili:
M[əhəmməd] Ə[li] Sidqi.
Qeyd: Möhtərəm tamaşaçılara elan
edilir ki, bundan sonra pərdələr təyin
edilən zaman qaldırılacaqdır.

*T-304*